**Mirzə Ələkbər Sabir. Hophopnamə**
**Bakı, Yazıçı 1992**

## Barakallah

Sən beləsənmiş, balam, ay barakallah sənə!
Fisq imiş əmrin tamam, ay barakallah sənə!

Doğru imiş, şairin olmaz imiş məzhəbi,
Kafir olurmuş bütün mirzələrin əğləbi,
Løğvü əbəs mətləbi, ləhvüləəb məşrəbi,
Şuğlü qəzet, teleqram, ay barakallah sənə!

Ay adama oxşamaz, bir üzünə baxsana!
Bomboz olub saqqalın, rəngü həna yaxsana!
Mömin olub, bir üzük barmağına taxsana!
Ta ki, desin xasü am: ay barakallah sənə!

Yox xəbərin, binəva, hiç özündən sənin,
Lap malaqanlıq yağır girdə gözündən sənin,
Doğrusu, mən ürkmüşəm bəzi sözündən sənin.
Verməram artıq salam, ay barakallah sənə!

Heyf qapanmış sənin dideyi-həqbinlərin,
Mənzilinə yığmısan partretin cinlərin,
Gözlərinə çapmayır yoxsa bu bidinlərin,
Surəti hər sübhü şam, ay barakallah sənə!

Əqlin azıb, ay yazıq, boşlamısan karını,
Cümlə dəyişdirmisən kürkünü, paltarını,
Çəkmə, qaloş geymisən, pozmusan ətvarını,
"Filükə filül-həram", ay barakallah sənə!
Ağzına olsun qadam, ay barakallah sənə!

———

Veb direktor: Betti Bleyer
Yığdı: Nərgiz Abadi
Yoxladı və veb üçün hazırladı: Aydan Nəcəfova
AZERİ.org-a qoyuldu: Fevral 2005